

**Azərbaycan teatrının tarixində öz zəngin yaradıcılığı ilə iz buraxmış sənətkarlardan biri də gözəl pedaqoq, istedadlı rejissor, peşəkar aktyor Ədil İsgəndərovdur.**

**Onun yaradıcılığının 22 ili Akademik Dram teatrı ilə bağlı olmuşdur. 1936-cı ildən teatrda (sıravi) rejissor kimi çalışan Ədil İsgəndərov Moskvaya təhsilini davam etdirməyə gedir. 1937-ci ildə vətənə dönən rejissor Vaxtanqov teatrından böyük təcrübə toplayır.**

Onu teatra rejissor təyin edirlər. Rejissorun ilk uğurlu işi Korneyçukun "Polad Qartal" (Ploton Kreçet) tamaşası olur. İlk uğurun ardınca M.İbrahimovun "Həyat" tamaşasına quruluş verir. 1937-ci ildə səhnəyə qoyulan bu tamaşa uzun müddət nə teatrın səhnəsindən, nə də mətbuat səhifələrindən düşmədi.

Nəhayət, rejissora bütün yaradıcılığı boyu şöhrət gətirmiş, öz monumentallığı ilə tamaşaçı yaddaşından silinməyən S.Vurğunun "Vaqif" tamaşası oldu. Dramaturqla birgə işləmək istedadına malik olan rejissor yazırdı: "Səməd Vurğun yoldaşın bu əsəri bədii dəyərli, yüksək ruhlu, canlı, dərin və dolğun bir əsər olduğundan, teatrın yaradıcılıq işində əsas rol oynayır. Bu əsərdə aktyor yaradıcılığına çox kömək edəcək tamamlanmış obrazlar vardır. Əsərdə xalq qəhrəmanlığını və intersionalizmi (Eldar, Şaliko, Arşaq, Kürd Musa və qeyrilərinin simasında) bütün dərinliyi ilə əks edən dəyərli, bədii cizgilər vardır".("Vaqif" pyesası üzərində necə işləmişik (1936-cı il). Ə. İsgəndərov. 30 sentyabr, №45 (190), Ədəbiyyat qəzeti.)

Qeyd etdiyi kimi Ədil İsgəndərov əsərin məzmunundan çox razı idi. Əsərin quruluşunu vermək, Vaqif dövrünün yaşayışını, o zamankı insanların geyim və xüsusiyyətlərini vermək məqsədilə quruluşda iştirak edəcək qüvvə-rejissor olmaq etibarilə o və rəssam N.Fətullayev Qarabağa ezamiyyətə gedib Qarabağın təbiətilə, əhali ilə görüşüb söhbətlər aparıb çoxlu sayda material toplamışlar. XVIII əsrin geyim və silahlarının öyrənilməsi işində xan sarayındakı muzeydən geniş məlumatlar almışlar. Tamaşanın bəstəkarı olan S.Rüstəmov musiqini xalq folkloruna əsasən bəstələmişdi.

"Vaqif"in ilk tamaşası Azərbaycan səhnəsində maraqla qarşılandı. Əsərin müvəffəqiyyətli alınmasında müəllifdən, rejissordan, aktyordan tutmuş ən kiçik texniki işçiyə qədər hamının zəhməti böyük idi.

Təkcə rejissorun dramaturqla mətn üzərində birgə işi uzun-uzadı çəkirdi: "Mətn üzərindəki işimiz məşqdən sonra gecələr olurdu. Çox zaman müəllifin köməyinə ehtiyac hiss edirdik. Belə vaxtlarda müəllifi çağırıb fikrimizi söyləyirdik. O isə bir dəfə olsun "yoruldum" demirdi".

Səməd Vurğun ilk dəfə idi ki, dram əsəri yazırdı. Ona görə də bəzi səhnə şərtiliklərini nəzərə almayıb. Personajları istədiyi kimi səhnəyə gətirib çıxarırdı.

"Bəzən səhnə mizanı ilə əlaqədar olaraq Səməd Vurğun əlavə misralar yazırdı. Bu da əsərin ideyasının açılmasına xeyli kömək edirdi". (S. Turabov: Ədəbiyyat və incəsənət. 27 iyul 1968. "Vaqif" tamaşası necə yarandı.)

Teatr kollektivi "Vaqif" dramının hazırlanmasında böyük səylə işləyirdi. Səhnə məşqləri o qədər qızğın gedirdi ki, iş saatının nə vaxt qurtardığı hiss olunmurdu. S.Vurğunun məşqlərdə iştirakı aktyorları daha da həvəsləndirirdi.

Nəhayət, uzun yaradıcılıq işi sona yetir. Tamaşa tamaşaçıların müzakirəsinə verilir.

Ə.İsgəndərov Vaqifin sadə, ifadəli dilini qorumaq və eyni zamanda yüksək şeriyyətini tamaşaçıya çatdırmaq üçün yaradıcı heyətlə çox çalışır.

Tamaşa XVIII əsrin axırlarına,



# "Vaqif" tamaşası haqqında

köhnə Azərbaycan tarixinin maraqlı bir dövrünə təsadüf edirdi. Əsərin ümumi məzmunu bir tərəfdən istilaçı, zalım Ağa Məhəmməd şah ilə Vaqif və vətənini, mənliyini qoruyan xalq arasında, o biri tərəfdən Qarabağ xanı İbrahim xan, saray yaltaqları ilə yenə Vaqif arasında, Vaqifin cəbhə yoldaşı və xalq qəhrəmanı Eldar arasında mübarizə ilə başlanır. Bu mübarizənin davamı və inkişafı boyunca Vaqifin Vidadi ilə, Eldar ilə, kəndlilər ilə dostluğu, sədaqəti, onun saray mühitində sıxılması, ailə faciəsi və sairə göstərilir.

Tamaşanın rejissoru Ə.İsgəndərovun səmərəli əməyi nəticəsində "Vaqif" tamaşası Azərbaycan xalqının keçmiş acınacaqlı vəziyyəti və bu vəziyyətdən xilas olmaq üçün onun apardığı mübarizəni tamamilə aydın bir şəkildə nümayiş etdirirdi. "Vaqif" tamaşası əsl xalq qəhrəmanlığı tamaşası idi. Bu tamaşa bir daha göstərirdi ki, insanların sədaqəti və azadlığı xalqın sıx birliyindədir. Bu birlik olmasa azadlıq və xoşbəxtlik ola bilməz.

Təbii ki, tamaşanın müvəffəqiyyətindən danışarkən aktyor oyununu xüsusi qeyd etmək lazımdır. Ə.İsgəndərovun professionallığı burada da ona kömək oldu. Gözəl və istedadlı aktyor ansamblı toplayan rejissor çox yüksək səviyyədə rol bölgüsü etdi. Baş rolun mahir ifaçısı Vaqif - Ə.Ələkbərov, Xuraman - F.Qədri, Qacar-S.Ruhulla, İbrahim xan - A.Qərəybəyli və sairə obrazlar arasında bölgü aparan rejissor bu tamaşada gənclərdən də istifadə etdi. Deyilənlərə görə tamaşa o qədər gözəl alınmışdı ki, teatrdakı aktyorlar hətta kütləvi səhnələrdə oynamağa can atırdılar.

Azərbaycan SSR xalq artisti Ə.Ələkbərovun ifasında Vaqif çox yüksək səviyyədə alınmışdı. Bu da rejissorun düzgün seçimi idi.

Ə.Ələkbərovun oynadığı Vaqif üzügülər, mehriban bir adamdır. O, həm yaxşı şair, həm gözəl ata, həm də xalqını sevən vətənpərvər bir oğuldur. Ələkbərovun ifasında Vaqif tamaşaçılar üçün ağıllı, iradəli, sədaqətli təqdim olunurdu. Aktyor obrazı o qədər təbii və inandırıcı oynayırdı ki, tamaşaçı Vaqifin bütün həyəcan və iztirablarını, qəzəb və məhəbbətini onunla birlikdə çəkirdi. Aktyorun ifasında Vaqif bütün fələkətlərə çoşqun temperamentli şair gözü ilə baxırdı. Obrazın öhdəsindən böyük məharətlə gəldi. Uzun zaman tamaşaçı yaddaşında Vaqif obrazı ilə sevildi.

Digər obrazın ifaçısı olan Fatma Qədri (Xuraman) səhnədə unudulmaz obraz yaratdı. Azərbaycan SSR xalq artisti Fatma Qədri şöhrət dalınca qaçan, dəbdəbəli həyat sürməyə can atan bu meşşan qadının xarakterini bütün aydınlığı ilə açıb göstərə bildi. Tutduğu əməldən peşiman olan Xuramanın Vaqiflə sonuncu görüşü obrazın daxilindəki bütün acıları, iztirabları məharətlə nümayiş etdirirdi.

Tamaşanın digər ifaçıları olan Sidqi Ruhulla-Qacar, A.Qəraybəyli-İbrahim xan, Əli Qurbanov-Vidadi yaxşı oynamışlar. Tamaşada əsas hadisələrlə sıx əlaqədar olan bir sıra maraqlı obrazlar da vardı. Məsələn, Şeyx Alı, Eldar, Vəzir, Gülnar, Təlxək, Şaliko tamaşaya qüvvət verən obrazlar idi.

Ə.İsgəndərov kütləvi səhnələrin yaradılmasında mahir idi. Məhz bu tamaşadakı belə səhnələr tamaşaya güc verdi.

Təkcə onu qeyd etmək kifayətdir ki, bu tamaşa 1000 dəfə səhnədə oynanılıb. Tamaşada xırda qüsurlar da var idi. Lakin bu tamaşanın ümumi uğuruna xələl gətirmədi.

"Vaqif" tamaşası Ə.İsgəndərovun quruluşunda uzun zaman Rus Dram teatrının səhnəsini də bəzədi.

Bu tamaşa realist dramaturgiyanın yeni və qüvvətli bir əsəri kimi qiymətləndirildi.

"S.Vurğunun lirikası aktyorlarımızın yaradıcılığına, səhnə ustalarının məharətinə yeni bir qüvvət verdi. Bu əsər teatrın çərçivəsini, səhnə meydanını genişlətmiş, tamaşaçı ilə aktyor kütləsi arasındakı şərti məsafəni pozmuşdur. Bu, sovet teatr sənətinin, sovet dramaturgiyasının böyük bir qələbəsidir". (Yeni yol. 10 oktyabr, 1928-ci il. M. Hüseyn).

Ə.İsgəndərovun yaradıcılığında belə qələbələr çox olmuşdu.

**Reyhan Novruzova**